*Azərbaycanda çoxlu uca dağlar və zirvələr vardır. Lakin hətta ən uca zirvə belə ölkənin hər yanından görünmür. Amma Azərbaycanda bir zirvə var ki, nəinki Azərbaycanın hər güşəsindən, hətta dünyanın yaxın-uzaq ölkələrindən də yaxşı görünür. Bu, Heydər Əliyev zirvəsidir. Xalq və iqtidar... Bu anlayışlar əslində bir dövlət deməkdir. Bu, gözə görünməyəcək tel qədər incə bir bağdır. Azərbaycan xalqı bu teli möhkəm bağlardan qurduğu üçün xalq-iqtidar birliyi dövlətimizin təməlini təşkil edir. Tarix boyu vətənimiz xalqımızın canından belə əziz bildiyi yeganə müqəddəs sərvəti olmuşdur. Millətimiz yaşadığı müxtəlif coğrafiyaları müxtəlif kimlik və sivilizasiya dəyərləri ilə yeddidən yetmişə insanların arasında qurduğu sevgi və ruh birliyi ilə vətənləşdirmiş, vətən və millət sevgisi isə xalqımız üçün sarsılmaz bir inama çevrilmişdir.*

## Heydər Əliyev - 100

# Heydər Əliyev ucalığı




Azərbaycan çox çətin günlərdən keçmişdir. Azərbaycanın tarixi haqqında yazarkən onu uşaq evində böyümüş bir uşağa bənzədirəm. Göz yaşlarını özü siləcək, istədiklərini özü ala bilən bir uşağın taleyinə bənzər bir tariximiz var. Bu keşməkeşli yolda bizə xilaskar olan, əlimizdən tutub valideyntək himayə edən biri lazım idi. Deyirlər, fillər çox olan ölkələrdə balaca fil balasını əhliləşdirmək üçün ayağını zəncirləyirlər. Balaca fil nə qədər güc versə də, bu zənciri qıra bilmir. Onu qıra biləcək vaxta çatanda isə qırmır. Çünki artıq inamı qırılmış olur. Azərbaycan xalqı da 90-cı illərin müstəqilliyi günlərində inamı qırılmış vəziyyətdə idi. Bu xalqın qurtuluşu onun inamının yerinə gəlməsində, bataqlıqdan çəkib çıxaracaq bir xilaskarda idi. Bu qəhrəmanlıq salnaməsinin yazarı isə Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında, yüksəldilməsində, inkişafında müstəsna rol oynayan, daima xalqına arxalanan Heydər Əliyev idi.

Heydər Əliyev hakimiyyətə gələn bir prezident deyildi. O həm də xalqın özü idi. Xalq-iqtidar anlayışının kəsişməsi idi Heydər Əliyev. Məhz Ulu Öndərin xalqla hakimiyyət arasında keçid rolunu oynayacaq bir partiya yaratması bugünki işıqlı gələcəyə atılmış ən uğurlu addım idi. Xalq partiya idisə, Heydər Əliyev də bu partiyanın sədri idi. Yəni bu xalqdan idi. Xalqın dünəni, bu günü və gələcəyi olan bu partiya ölkəyə yeni nəfəs, yeni ruh yüksəkliyi gətirən Yeni Azərbaycan Partiyası idi. Yeni Azərbaycan Partiyası son dərəcə ağır və keşməkeşli günlərində ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və kəskin tələbi ilə yaranmışdır. Mən indi həmin dövrün müqayisəli təqdimatını yox, müqayisəli zaman mövzusunda bəzi fikirlərimi qeyd edəcəm. Bu müqayisəli zamanı bir neçə dövrə bölmək istəyirəm. 1991-ci illər müstəqillik əldə olundu amma ölkədə xaos, nizam-intizamsızlıq başladı. Az qala vətəndaş müharibəsi həddinə çatdı. 1993-cü ilin xalqın təkidli tələbi ilə Ulu Öndər hakimiyyət gəldi. İlk öncə daxildə sabitlik yaratmaq lazım oldu. Ulu Öndərin təcrübəsi hakimiyyət və xalq arasında nüfuzu bu sabitliyi yaratmağa nail oldu. Paralel olaraq hakimiyyətin dayaqlarını möhkəmləndirmək, xalqın rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyatı inkişaf etdirməsi lazım idi. Yəqin ki, hər birimizin çox yaxşı yadımızdadır ki, 1994-1995-ci illərdə mart və noyabr hadisələri istər kənar qüvvələrin dəstəyi və daxili satqınların birləşərək yenidən çaxnaşma salmaq istəmələri: Ulu Öndər bu hücumların qarşısını çox böyük ustalıqla ala bildi. 1994-cü ilin sentyabr tarixi bir gün: Bu qədər hücumlar ola-ola xalqın gələcəyini düşünən Ulu Öndər "Əsrin müqaviləsi"nin bağlanmasına nail ola bildi. Bu müqavilə öz nəticəsini müəyyən illərdən soonra verməyə başlayanda zamanında bu işə maneəçilik edən dırnaqarası vətənpərvərlər bəlkə də xəcalət çəkdilər. 1995-ci il dövlətin qanunlarla işləməsi üçün onun öz quruluşuna uyğun ana qanuna - Konstitusiyaya ehtiyacı var idi. Heydər Əliyev sərəncam verərək komissiya yaratdı. Bu əsərin rəsmi dillə desək bu qanunun yaranmasının müəllifi özü oldu. 5 bölmə, 12 fəsil, 158 maddənin hər bir sətri özünün diqqətindən və süzgəcindən keçdi. Xalq 1995-ci ildə 12 noyabrda öz sözünü deyərək çox böyük yekdilliklə səs verib SSR-dən qalmış öz qüvvəsini itirmiş qanun toplusundan xilas oldu.

Həyat davam edir... Azərbaycan xalqı dünyanın inkişafından geri qalmağa layiq olan xalq deyil, dünyada tanınmalı, inkişaf etməli ən böyük bəladan - torpaqlarının işğaldan azad olunma bəlasından qurtarmalıdır. Ulu Öndər bir əlində Azərbaycanın üç rəngli bayrağı, bir əlində Azərbaycanın xəritəsi beynəlxalq təşkilatların, söz sahibi olan dövlətlərin qonağı oldu, danışdı. Ölkəmizin haqlı olduğunu dünyaya sübut etdi. Çox uğurlara imza atdı. Çox irəliləyişlərə nail oldu. Amma düşmənimiz arxalı köpək idi. Nəhayət, Ulu Öndərin layiqli davamçısı 2003-cü il oktyabr ayının 15-də Azərbaycan Respublikasının Prezidenti seçildi. Lakin bu seçki gününə qədərki müddətdə, yəni 2003-cü il oktyabrın 1-də Ulu Öndər Azərbaycan xalqına müraciət edərək öz namizədliyini, siyasi varisi İlham Əliyevin xeyrinə geri götürdüyünü bildirdi. "Üzümü Sizə - həmvətənlərimə tutaraq qarşıdan gələn Prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O yüksək intellektli, proqmatik düşüncəli, müasi dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirəcək. Azərbaycan dövlətinin inkişafını və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim tale yüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm", - dedi.

2003-cü il 15 oktyabrda keçirilən seçkilərdə seçicilərin 76%-dən çoxu İlham Əliyevə səs verdi. Beləliklə, Azərbaycan xalqı İlham Əliyevi prezident seçməklə Heydər Əliyevin siyasi kursuna sadiqliyini nümayiş etdirməsi, milli liderə sevgini və inamını bir daha sübut etdi. Azərbaycan xalqı sülhün, əmin-amanlığın, tərəqqinin, inkişafın, quruculuğun və sabitliyin tərəfində olduğunu və ölkədə bu siyasətə alternativin olmadığını göstərdi. İlham Əliyev müstəqil Azərbaycan dövlətini qurub yaratmış böyük dahi şəxsiyyətin Azərbaycanla bağlı yarımçıq arzularını başa çatmamış planlarını ona etibar etmiş Ümummilli Liderin bu inamın xalq və dövlət qarşısındakı misilsiz xidmətləri ilə doğruldan şəxsiyyət oldu. Dövlətə, rəhbərlik missiyasına "Mən hər bir Azərbaycan vətəndaşının prezidenti olacağam", - bəyanatı ilə başlayan cənab İlham Əliyev bu illərdə ölkə başçısı kimi üzərinə düşən bütün vəzifələri yerinə yetirdi. Xalq qarşısında vədlərinə əməl etdi. Bu illəri Azərbaycanın sürətli inkişaf mərhələsinə çevirdi. Azərbaycan prezident kimi rəhbərlik etdiyi 20 ildə ölkəmizin bütün sahələrdə sürətli inkişafına nail olunub. İnsanların rifah halı daha da yaxşılaşdı. Azərbaycanın siyasi-iqtisadi imkanları genişləndi, ölkəmizin beynəlxalq ölkələr arasındakı mövqeləri möhkəmləndi və 30 il ərzində pozulmuş ərazi bütövlüyümüz bərpa edildi.

Bu gün regionda reallaşdırılan bütün beynəlxalq irimiqyaslı layihələr Azərbaycanın iştirak və milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Mövcud tarixi siyasi coğrafi şəraitdən asılı olmayaraq liderlik fenomeni milli dövlətin formalaşmasında və inkişafında həlledici rola malikdir. Lider həmçinin mənəvi birliyi təmin edən cəmiyyətdə müəyyən əhval-ruhiyyənin, ideya və dəyərlər sisteminin formalaşmasına təsir göstərən böyük qüvvədir. Odur ki, dövlət başçısının sayəsində ölkəmizdə siyasi sabitlik daha da möhkəmləndirilmiş və gələcək inkişaf üçün etibarlı zəmin yaranmışdır.

Həyatda bəzən adamı təəccübləndirən ağlasığmayan hadisələrmi və ya həqiqətlərmi deyə hallar olur. Mən bir iki misal çəkmək istəyirəm. 1939-45-ci illərdəki müharibədə Almaniya məğlub olaraq 2 yerə bölündü. 1991-ci ildə yenidən birləşdi. Yaponiya Sakit okeanda kiçik adalarda dünyadan təcrid olunmuş halda mövcud idi. 16-cı əsrdən sonra Avropadan missionerlər ayaq açdılar və 2-ci dünya müharibəsində isə 1945-ci ilin avqust ayında atom bombası atılaraq 260 min dinc əhali qırıldı. 12-15 ildən sonra Yaponiya elektronika sahəsində dünyaya meydan oxumağa başladı. Bu da insanı təəccübləndirən həqiqətin bir növüdür. Belə ağlasığmayan həqiqətlərdən çox misal gətirmək olar, amma ən ağlasığmaz həqiqəti isə Azərbaycan Prezidenti, Azərbaycan ordusu və Azərbaycan xalqı yaratdı. Təsəvvür edin 30 il düşmən işğalı altında qalan torpaqlarımızı 44 günə işğaldan azad etdi. 44=10965 gün (30 il). Nə riyaziyyat elminə sığır, nə də ağıla.

Amma bu bir həqiqətdir. Bu həqiqətin özülünü qoyan isə Ulu Öndər Heydər Əliyev idi. Ulu Öndərin təbirincə desək, əziyyət çəkdi, təhdidlərə məruz qaldı, amma xalqla bağlı müsbət nəticələr əldə etdi.

Hələ uğurlarımız irəlidədir...

**Səfa Ağayev,**
**YAP İmişli rayon təşkilatının sədri**